AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

İŞÇİ MƏQALƏLƏRİ SİLSİLƏSİ
№ 05/2014





# SOSİAL KAPİTALIN İQTİSADIYYATA TƏSİRİ





*G.TAHİROVA*











**Qeyd: Bu tədqiqat işində ifadə olunan fikirlər müəlliflərə məxsusdur və Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi mövqeyi ilə üst-üstə düşməyə bilər.**

*SOSİAL KAPİTALIN İQTİSADİYYATA TƏSİRİ*


**Xülasə**

Məqalə sosial kapitalın nəzəri əsaslarının araşdırılmasına həsr olunmuşdur. Tədqiqat zamanı sosial kapital anlayışı, onun formaları, faydası, ümumilikdə konseptual modeli təhlil olunmuşdur.

Tədqiqat işinin əsas məqsədlərindən biri də sosial kapitalın ölçülməsidir. Bu məqsədlə müəyyən olunmuş metodologiya əsasında və Avropa Dəyərlər Sorğusundan istifadə etməklə, Avropa ölkələri üçün regional səviyyədə indeks hesablanmışdır. İndeksi hesablamaq üçün 45 göstəricidən (sorğu məlumatı və iqtisadi göstəricilər) istifadə edilmişdir.



**Açar sözlər:** sosial kapital, institutlar

**JEL təsnifat:** D71, P32



**Abstract**

The paper studies theoretical foundations of social capital. In particular, it analyzes the definition of social capital, its forms, usefulness, and conceptual model in general. One of the main purposes of the paper is to measure social capital.

For this purpose, we use the results of the European Values Survey to calculate the regional index for the European countries. To compute index, we use 45 indicators (survey results and economic indicators).



**Key words:** social capital, institutions

**JEL code:** D71, P32

**Giriş**

Ölkələrin iqtisadi inkişaf səviyyələri arasındakı fərq iqtisadçılar tərəfindən fiziki kapital, təbii-coğrafi amillər, instusional mühit və s. çoxlu sayda mövzular üzərində kifayət qədər araşdırılmış və müəyyən nəticələr əldə edilmişdir.

1960-cı illərdə insan kapitalı amili tədqiqatçıların diqqət mərkəzində idisə, 1980-lərdə sosial kapital məsələsi önə çıxmağa başladı. Həmin dövrdən ailə araşdırmalarından, gənclərin davranışlarından başlayaraq təhsilə maraq, cəmiyyətdə müəyyən dəyərlərin qorunması, insanlar arasında etimad və s. məsələlər araşdırılarkən sosial kapital anlayışı aktuallıq kəsb etməyə başladı.

Amma bu terminə elmi ədəbiyyatlara hələ 1920-ci illərdə Veberin əsərlərində, daha əvvəllər isə bir sıra filosofların əsərlərində rast gəlinmişdir. 1916-cı ildə L.Hanifan sosial kapitalın təhsilin keyfiyyətinin artmasına təsirini araşdırmış, 1956-cı ildə Seely, Sim və Loosey (1956) tədqiqatında da sosial kapital mövzusuna toxunulmuşdur.

1980-ci illərdən başlayaraq, sosial kapital mövzusu daha geniş araşdırılmağa başlandı. Həmin dövrdə Pierre Bourdieu'nun (1983, 1986), J.Colemanın (1988, 1990) bu mövzuda apardıqları tədqiqatlar indi ən çox istinad edilənlər arasındadır. P. Bourdieu və J.Colemandan sonra 1993-cü ildə R.Putnamın İtaliyada regional inkişaf məsələləri ilə bağlı tədqiqatı sosial kapital məsələsi üzərində qurulmuş və geniş müzakirələrə səbəb olmuşdur.

Sosial kapitalın formalaşması və inkişafı, faydaları, iqtisadi inkişafa təsirlərini araşdıran alimlərin fikirləri tədqiqat işində təhlil olunmuşdur. Baxılan məsələlərdən biri də sosial kapitalın ölçülməsi ilə bağlıdır. Sosial kapitalın qiymətləndirilməsi üçün geniş yayılmış üsullardan biri sorğulardır. Təhlil üçün istifadədə ən geniş yayılmış sorğulardan Dünya Dəyərlər Sorğusu (World Values Survey) və Avropa Dəyərlər Sorğusunu (EVS) qeyd etmək olar. Sorğunun təhlili vasitəsilə ölkələr və ya regionlar üzrə sosial kapital haqqında ilkin fikir formalaşır. Tədqiqat işində sosial kapitalın digər qiymətləndirmə üsulu olan empirik yanaşmaya da baxılmışdır. Buraya isə makro (Olson 1982, North 1990) və mikro (Uphoff 1996) səviyyədə araşdırmalar aid edilir. Tədqiqat işində bu məsələlər ətraflı təhlil olunmuşdur.

Tədqiqat işində Avropa ölkələri üzrə regional səviyyədə sosial kapitalın səviyyəsi müəyyən edilmişdir. Bu məqsədlə Avropa Dəyərlər Sorğusunun (2008) nəticələrindən istifadə edilərək təhlil aparılmışdır. Sosial kapital indeksinin müəyyən olunması üçün mövcud metodologiyalardan birindən istifadə olunmuşdur. Ümumilikdə 45 sorğu və real göstəricilərdən istifadə edilmiş və PCA

(principial component analysis) metodunu tətbiq etməklə indekslər müəyyən olunmuşdur.

## Sosial kapital anlayışı

Müasir elmi ədəbiyyatlarda sosial kapitala iki müxtəlif aspektdən yanaşırlar (M.Woolcock, 2004). Birinci istiqamət sosioloqlarla bağlıdır (R.Burt, Nan Lin, A.Portes). Onlar sosial kapital dedikdə, insanların kimlə, hansı tezlikdə görüşdüklərini, başqalarına qarşı sosial münasibətləri və s. araşdırır. İkinci və daha geniş yayılmış istiqamət isə formal ictimai təşkilatlarda və qeyri-formal şəbəkələrdə iştirak səviyyəsini öyrənir (R.Putnam və s.). Biz tarixi ardıcıllığı nəzərə alaraq, bir sıra alimlərin yanaşmalarını qeyd edəcəyik.

**Pierre Bourdieu**-ya (1983, 1986) görə sosial kapital 3 əsas kapital növündən (iqtisadi, mədəni və sosial kapital) biridir. İqtisadi kapital birbaşa pula çevrilə bilir və mülkiyyət hüququ kimi instusionallaşır. Mədəni kapital müəyyən şərtlər daxilində iqtisadi kapitala çevrilir və təhsil üzrə instusionallaşır. Sosial kapital isə əlaqələrdən formalaşır və müəyyən şərtlər daxilində iqtisadi kapitala konvertasiya olunaraq, instusionallaşır.

Bourdieuya görə, sosial kapitalı imtiyazlı sinfə məxsus kapital hesab etmək olar və bu onların öz üstünlüklərinin qorumaq üçün istifadə etdikləri alətdir. Amma o, sadə qonşuluq münasibətlərindən başlayan sosial kapitalı daha təhlükəsiz və dayanıqlı hesab etmişdir. P.Bourdieu hesab edir ki, sosial kapital digər kapital növləri ilə sıx bağlıdır. İerarxiyadan asılı olaraq onun fayda götürmək, sui-istifadə etmək kimi mənfi təzahürləri də ola bilər. Bourdie-ya görə sosial kapital investisiya qoymaq, şəxsi maraqları qarşılamaq üçün lazımi əlaqələri qurmaqdan ibarətdir.

Beləliklə, P.Bourdieu hesab edir ki, *sosial kapital qarşılıqlı etimad münasibətlərinə əsaslanan, az və ya çox dərəcədə institusionallaşmış, dayanıqlı şəbəkəyə malik real və potensial resursların məcmusudur.*

**James Coleman** (1988, 1990) sosial kapital anlayışını Amerikada tələbələrin təhsillərinin uğurlu olması və ya yarımçıq qoymaları səbəbləri kontekstində tədqiq etmişdir. O, məsələnin kökünün maddi (maliyyə), insan və sosial kapitalda olduğunu qəbul etmişdir. Onun fikrincə, maddiyyət təhsilin iqtisadi mənbəsini, insan kapitalı ailənin təhsilə olan maraq və tələbini, sosial kapital isə həm ailə daxili, həm də ailə-məktəb münasibətlərini formalaşdırır. Tədqiqatın nəticəsinə görə, təhsilini tamamlamayan tələbələrin bu addımı atmasına səbəb yalnız maddi və insan kapitalı deyil. Əsas səbəblərdən biri də

sosial kapitaldır. Coleman Bourdieudan fərqli olaraq, sosial kapitalı təkcə elit təbəqəyə aid etmir. Onun fikrincə, sosial kapital ictimai rifaha xidmət edir və təhsildən başlayaraq dövlət idarəetməsinə qədər bir çox problemlərin həllində aparıcı qüvvə ola bilər. Colemana görə, *sosial kapital məhsuldar resurs rolunu oynayan və qeyri-formal əlaqələrdən yaranan sosial təşkilatdır.*

**Robert Putnama (1993)** görə, *sosial kapital ortaq hədəflərə nail olmaq üçün insanların birgə hərəkət etməsini təmin edən inam, etibar, sosial normalardan ibarət qeyri-formal institutdur.* Putnam şəxsi maraqlar üzərində qurulan sosial kapitalı qəbul etmir və yalnız ictimai maraqlara xidmət edən sosial kapitalı üstün tutur. Fərdlərin müəyyən ideyalar naminə qruplaşması inam, qarşılıqlı etibar hesabına baş verməlidir.

İctimai maraqları eyni olan insanların birləşərək institutlaşması, formal institutların normal fəaliyyət göstərə bilmədiyi cəmiyyətdə iqtisadi inkişafa və səmərəli idarəetməyə gətirib çıxara bilər. Putnam tədqiqatlarında müxtəlif ölkələrdə sosial kapitalın artma və azalma səbəblərini araşdırmışdır. Putnamın Amerikada sosial kapitalın azalması səbəblərinin araşdırıldığı tədqiqatında müəyyən etmişdir ki, azalma 4 əsas səbəblə bağlıdır - valideynləri çalışan uşaqların sosial həyatındakı boşluqlar, televiziyaların insanların həyatında önəmli yer alması, iqtisadi böhranlar, vaxtın idarə olunmasındakı problemlər.

**Francis Fukuyama** 1995-ci ildə "Trust. The Social Virtues and the Creation of Prosperity " tədqiqatı ilə sosial kapital anlayışına yeni ideyalar gətirdi. O, fərdiçiliyin Amerika cəmiyyəti üçün təhdid olması qənaətinə gəlmişdir. Fukuyama İtaliya və Çində ierarxiya və şəxsi bağlantılar əsasında qurulan münasibətləri təhdid hesab edir. O, Almaniya və Yaponiyada sosial kapitalın güclü təməlinin olmasının iqtisadi və siyasi sferalarda faydasını müəyyən etmişdir.

Onun fikrincə, *sosial kapital fərdlər arasında əlaqələri dəstəkləyən qeyri-formal normalardır.* İnam hissinin güclü olduğu bir cəmiyyətdə formalaşan sosial kapital iqtisadi sferada tranzaksiya xərclərini azaldır, habelə cəmiyyətdə sağlam mühit yaradır. Mülkiyyət hüququ, sağlam rəqabət və s. bazar iqtisadiyyatının təməlini təşkil etdiyi kimi, sosial kapital da (məsələn, inam kimi) iqtisadi uğurların təməlidir. Fukuyama sosial kapitala daha böyük anlam verərək onu iqtisadi inkişafın və stabil liberal demokratiyanın əsas komponenti hesab edir.

Yuxarıda qeyd edilən fikirlər sosial kapitalla bağlı çoxlu sayda tədqiqat işləri arasından ən çox istinad olunan müəlliflərə aiddir. Ədəbiyyatlardakı sosial kapital barəsində araşdırmalar göstərir ki, sosial kapital konsepsiyasına

yanaşmalar fərqlidir. Putnamın fikrincə (1995), sosial kapital müəyyən mənada ölkələrin tarixi inkişafından, cəmiyyətin inkişaf xüsusiyyətlərindən asılıdır.

Colemana (1988) görə sosial kapital digər kapital növlərinin (iqtisadi, insan) inkişafından da asılı olur. O, hesab edir ki, fiziki kapital insan kapitalının təsirindən genişləndiyi, insan kapitalı fərdlərin bilik, bacarıqlarının daxili transformasiyasından faydalandığı kimi, sosial kapital da fərdlər arasında olan ictimai-sosial, istehsal münasibətlərindən asılı olur.

Bourdieu (1985) hesab edir ki, iqtisadi kapital asanlıqla insan, sosial, mədəni kapitala çevrilə bilir. Lazerson (1995) tədqiqatında göstərir ki, güclü sosial kapitala malik cəmiyyətlərdə şəxslər, hətta şirkətlər arasında maliyyə məsələləri həll olunur. Şirkətlər arasında tranzaksiya xərclərinin azalması nəticəsində iqtisadi səmərəliliyin artması sosial kapitalın müsbət xüsusiyyətlərindən biri hesab olunur. Sosial kapital ictimai məhsuldur, kimlərsə ayrılıqda ondan faydalanmamalıdırlar (Coleman, 1988).

**Sosial kapitalın yaranması**

Sosial kapitalın yaranması məsələlərini araşdıran alimlərin içərisində ən çox istinad olunan müəlliflərdən birinin - Kolemanın sosial kapitalın formalaşması, onun mənbəsini təşkil edən resurslar haqqında fikirlərinə diqqət yetirək. Koleman hesab edir ki, sosial kapitalın formalaşmasına sosial strukturlar (şəxslər, ailələr, qruplar, şirkətlər, müxtəlif məqsədli təşkilatlar və s.) və onlar arasındakı münasibətlər kömək edir. Koleman sosial kapitalın yaranmasında 3 əsas istiqamət qeyd edir:

1. *Öhdəlik və gözlənti*
2. *İnformasiya kanalı*
3. *Norma və effektiv sanksiyalar*

**1.** Kolemana görə əgər A (şəxs, qrup, şirkət və s. ola bilər) B üçün müəyyən bir iş görürsə, bu A üçün gözlənti, B üçün öhdəlik yaradır. Bu yanaşma sosial kapitalın yaranmasının birinci forması hesab olunur və sosial mühitdə tez-tez baş verir. Əksər sosial strukturlar bir-biri üçün qarşılıqlı olaraq nə isə edirlər. Amma bu münasibətlərin öhdəlik və ya gözlənti formasına keçməsi həmişə baş vermir. Əgər sosial mühitdə etibar, inam səviyyəsi yüksəkdirsə, öhdəlik-gözlənti sxemi inkişaf edir. Bir-birinə inanan, kömək edən qapalı strukturlar yaranır.

Nyu-Yorkda almaz satışı ilə məşğul olan və yəhudilər tərəfindən idarə olunan topdan satış mərkəzinin fəaliyyəti buna nümunədir (Coleman, 2004). Dəyəri 100 min dollarlar ilə ölçülən qiymətli daşların ekspertiza prosesi və ya

alqı-satqı prosesi onlar arasında olan güclü etibar sayəsində tamamilə rahatlıqla həyata keçirilir.

Sosial strukturların resurslara (maddi, mənəvi) əlçatanlığı yüksək səviyyədə olduqda öhdəliklər və ya gözləntilər öz əhəmiyyətini itirir. Heç kəs etdiyi yaxşılğın qarşılığını gözləmir. Buna ehtiyac hiss etmir və yaxud institutların normal fəaliyyəti buna zəmin yaradır.

**2.** Sosial münasibətlərin təməl şərti olan informasiyaya çıxış imkanı sosial kapitalın yaranmasında vacib rol oynayır. İnsanlar müxtəlif informasiya kanalları ilə məlumatlanır və bunun da əsasında müəyyən biliyə, dünya görüşünə malik olur. İnformasiya kanalı sosial münasibətlərin qurulmasında əvəzsiz rol oynayır.

Qonşuluq, qohumluq münasibətlərinin möhkəm olduğu və ya ictimai-mədəni tədbirlərin sıx-sıx keçirildiyi cəmiyyətlərdə informasiya kanalı daha yaxşı işləyir. Yəni informasiyanın yayılma imkanları geniş olur. İnsanların dostları, kolleqaları vasitəsilə dünyada baş verən ictimai-siyasi, mədəni hadisələr barədə informasiya mübadiləsində olması müəyyən vaxt itkisinin qarşısını alır. Bu, həm də sosial münasibətlərin dərinləşməsinə kömək edir və sosial kapitalı formalaşdırır.

**3.** Yazılı və yazılmamış normaların riayət olunduğu cəmiyyətdə sosial kapital daha möhkəm və ictimai dəyərlərə söykənən olur. Müəyyən proseslərin tənzimlənməsi üçün yaradılan normaların effektivliyi isə instusional mühitdən asılı olaraq dəyişir. Koleman hesab edir ki, kollektiv daxilində olan hər hansı arzuolunmaz davranış və ya fəaliyyəti sanksiyalarla aradan qaldırmaq mümkündürsə, bu, insanları ictimai maraqlara xidmət etməyə, kollektivçiliyə motivə edəcəkdir. Effektiv sanksiyalar ailə daxilində, təşkilatlarda, qruplarda və digər yerlərdə ictimai qınaq və ya normalar şəklində ola bilər. Ümumi normalar və ya effektiv sanksiyalar sosial strukturlar arasında daha möhkəm əlaqə yaradır.

Sosial strukturlar arasındakı münasibətlərdən yaranan sosial kapital bir sıra faydalara malikdir. Ədəbiyyatlarda 3 əsas istiqamətdən – informasiya, təsiretmə və həmrəylikdən müzakirələr edilir (Sandefur and Laumann's (1998)). Kolemanın (1988) fikrincə, alimin, ümumiyyətlə, hər hansı elm adamının müəyyən sahədəki elmi yeniliyi öz yaxın dostları ilə müzakirədə öyrənməsi və buna əlavə vaxt sərf etməməsi sosial kapitalın *informasiya faydası* hesab olunur. İnformasiya yeni iş yeri tapmaq imkanlarını da genişləndirir ((Boxman et al.,). İnformasiyanın innovasiya qabiliyyətinə təsirləri (Burt, 1987; Coleman, Katz, & Menzel, 1966; Rogers, 1995), həmçinin müəssisələrdə istehsal prosesində faydası barədə (Portes & Sensenbrenner, 1993) tədqiqatlar da işlənmişdir.

Sosial kapital ictimai-siyasi, iqtisadi, mədəni və s. proseslərə *təsiretmə faydasına* malikdir və özündə müəyyən güc və nəzarət funksiyasını da saxlayır. Bu isə sosial kapitalın ikinci tip faydasıdır.

*Həmrəylik* sosial kapitalın üçüncü tip faydası olaraq güclü sosial normaların və inamın göstəricisi kimi çıxış edir. Həmrəylik struktur daxili qaydaları möhkəmləndirir və formal nəzarəti azaldır. Kredit assosiasiyalarının effektivliyi (Geertz, 1962), katolik məktəblərində tələbələrin məktəbi yarımçıq qoyma səviyyəsinin aşağı olması (Coleman , 1988), inamın güclü olması və həmrəyliklə bağlıdır.

Sosial kapitalın yuxarıda qeyd edilən 3 əsas faydasından başqa, spesifik sahələrdə olan faydaları haqqında da çoxlu tədqiqatlar yerinə yetirilmişdir. Onlardan bəzilərinin adlarını çəkməklə kifayətlənirik: sosial kapital karyerada uğur qazanmağa təsir edir (Burt, 1992; Gabbay & Zuckerman, 1998; Podolny & Baron, 1997), insan kapitalının güclənməsinə dəstək verir (Hargadon & Sutton, 1997; Nahapiet & Ghoshal, 1998), təşkilatlararası əməkdaşlığı gücləndirir (Chong & Gibbons, 1997).

**Sosial kapitalın növləri**

Ədəbiyyatlarda sosial kapitalın növləri haqqında yanaşma Putnamın tədqiqatına əsaslanır. *Belə ki, sosial kapitalın iki əsas növü qeyd olunur: bond və körpü.* I tip sosial kapital (bond) yalnız öz ətrafını əhatə edən və qeyri-inkluzivdir. Zəncir (bond) tipli sosial kapital sosial çevrələri eyni olan və bir-birinə bənzər insanların toplusudur. Ailə üzvləri, onlara yaxın olan insanlar arasında uzun müddət davam edən əlaqələrdən formalaşan və qarşılıqlı inam, etibar, hörmət kimi xüsusiyyətlərə dayanan bir toplum zəncir tipli sosial kapitalın ən gözəl nümunəsidir.

II tip sosial kapital (bridge) isə inkluzivdir, cəmiyyətin müxtəlif üzvlərini əhatə edir. Körpü (bridge) tipli sosial kapitalda toplumun insanları bir-birinə yaxın olmaya bilərlər, sosial çevrələri isə müxtəlif ola bilər. Amma onları müəyyən ortaq maraqlar birləşdirir. Burada fəaliyyət daha dayanıqlı və sistemlidir. Bu tip sosial kapital daha güclü informasiya, təsiretmə faydalarına malik olur. Bu tip sosial kapital horizontal struktura malikdir. Yəni, insanların sosial vəziyyətləri az və ya çox dərəcədə bir-birinə yaxındır.

Bundan başqa, əlaqə (linkage) adlanan 3-cü tip sosial kapital növü də mövcuddur ((Woolcock 1999, World Bank 2000),OECD). Burada insanlar gücü və təsiri olan fərd və qruplarla əlaqələr qururlar. Yəni, söhbət idarə edilən və idarə

edən qruplar arasındakı münasibətlərdən gedir. Belə sosial kapitalın strukturu horizontal deyil, vertikal və ya ierarxik sistemə bənzəyir.

**Sosial kapitalın inkişafı və iqtisadi artımla əlaqəsi**

Sosial kapitalla bağlı araşdırma edən bütün alimlərin fikrincə, dövlətin siyasəti sosial kapitalın inkişaf etdirilməsinə müsbət və ya mənfi təsir edə bilər. Sosial kapitalın sağlam inkişafı üçün hüquqların qorunması, sosial ədalət, ictimai sabitlik və s. sosial kapitalın inkişafına müsbət təsir edən vacib şərtlərdəndir. Putnama (1995) görə, sosial kapitalın inkişaf etməsi üçün ictimai şəbəkələrin genişləndirilməsi, könüllü təşkilatların artırılmasına diqqət yetirmək lazımdır.

Fukuyama (2005) isə dövlətin rolunu daha önəmli hesab edir və onun əsas alətinin təhsil olduğunu vurğulayır. Onun fikrincə, təhsilin inkişafı həm insan kapitalının, həm sosial kapitalın və ümumilikdə, bütün etik dəyərlərin inkişafının açarıdır. Dövlət cəmiyyətdə ədalətin, hüquqların qoruyucusu olmalıdır ki, insanlarda inam, güvən hissi artsın və onlar birgə fəaliyyət göstərə bilsinlər.

Sosial kapitalın inkişafı öz növbəsində iqtisadi artıma da təsir edir. Onların arasında əlaqənin həm empirik, həm də nəzəri tədqiqinə dair ədəbiyyatlarda çoxlu nümunələr vardır. Sosial kapitalın səviyyəsi ölkələrin təbii, coğrafi, tarixi, dini-etnik tərkibindən asılı olaraq dəyişdiyi üçün, onun iqtisadi inkişafa təsirləri haqqında araşdırmalar da böyük müzakirələrə səbəb olur.

Əksər tədqiqatçılar sosial kapitalın institusional mühitin güclü açarı olması faktını qəbul edirlər. Güclü institusional mühitin, cəmiyyətdə inamın, yüksək vətəndaş həmrəyliyinin iqtisadi fəallığa müsbət təsirlərini tədqiqatlar təsdiq edir (S.Knack, P.Keefer, 1997). Yoxsul ölkələrdə inam və iqtisadi artım arasında asılılıq daha yüksəkdir. Putnamın (1995) tədqiqatı təsdiq edir ki, Amerikada sosial kapitalın əsas təsirləri işsizliyin və cinayət işlərinin azalması, hökumətin effektivliyi kimi məsələlərdə özünü göstərir. Putnam sosial kapital və iqtisadi artım arasında əlaqəni müsbət qiymətləndirir. O, (1995) bu fikri 4 əsas arqumentlə izah edir: güclü sosial kapital: 1) qarşılıqlı fayda məqsədilə koordinasiya və əməkdaşlığı artırır; 2) kollektiv arasında həmrəylik yaradır; 3) ictimai maraqları təmin edir (eqoizmi azaldır); 4) şəxsi mənafe üçün stimulları azaldır.

Whiteley (2000) bu əlaqəyə neoklassik artım modeli çərçivəsində baxmışdır. 34 ölkə üçün 1970-1992-ci illərin göctəriciləri əsasında qurulmuş modelə fiziki, insan və sosial kapital göstəriciləri daxil edilmişdir. Burada da müsbət əlaqə tapılmış və müəyyən edilmişdir ki, sosial kapital texnoloji dəyişikliklərin yayılmasına da müsbət təsir edir.

Whiteley inamın sosial kapitalı stimullaşdıran 3 əsas kanalını qeyd edir. Birincisi, inam tranzaksiya xərclərini azaltmaqla iqtisadi vəziyyətə birbaşa təsir edir. İkincisi, güclü inam kollektiv fəaliyyəti stimullaşdırır və iqtisadi artıma təsir edir. Ümumiyyətlə, inamın yüksək olduğu cəmiyyətlərdə ictimai infrastrukturdan şəxsi mənafe üçün istifadə olunmur. Üçüncüsü, maraqlar münaqişəsinin aşağı səviyyədə olması əlverişli biznes mühiti yaratmaqla iqtisadi inkişafa təkan verir.

Bu sahədə aparılan uzun müddətli müzakirələr onu təsdiq edir ki, güclü sosial kapital və iqtisadi inkişaf arasında müsbət korelyasiya var. Amma bir sıra tədqiqatlarçılar da var ki, bu fikrin həmişə doğru olmadığını araşdırmışlar. Belə tədqiqatlardan biri Mancur Olson (1982) tərəfindən yerinə yetirilmişdir (Roth, 2006).

Olson kollektiv fəaliyyət və iqtisadi göstəricilər arasındakı əlaqəni başqa tərəfdən izah edir. O, hesab edir ki, kollektiv fəaliyyət dövlətin iqtisadiyyatı dəstəkləmək üçün həyata keçirmək istəyəcəyi islahatlara mane ola bilər. Məsələn, əmək bazarı ilə bağlı islahat tədbiri bir sıra kollektivlərdə, təşkilatlarda müxtəlif reaksiyaya səbəb ola bilər. Bunu müəyyən mənada məhdudiyyət hesab etmək olar. Olson hesab edir ki, kollektiv fəaliyyətin iqtisadi inkişafı artıran müəyyən səviyyəsi mövcuddur.

**Sosial kapital necə ölçülür?**

Sosial kapitalın ölçülməsi üsullarından biri sorğulardır. Ən geniş yayılan sorğulardan Dünya Dəyərlər Sorğusu (World Values Survey - İlk dəfə 1981-ci ildə, axırıncı dəfə isə 1995-ci ildə keçirilmişdir) və Avropa Dəyərlər Sorğusunu (Europe Values Survey) qeyd etmək olar. Sorğular vasitəsilə sosial kapitalı müəyyən etmək üçün respondentlərə “insanlara inanırsınızmı, yoxsa diqqətli olmağı düşünürsünüz”, “kimlərlə tez-tez görüşürsünüz: dostlarınınzla, iş yoldaşlarınızla, eyni təşkilat (idman, əyləncə, mədəni, siyasi, dini və s.) üzvü olduğunuz insanlarlamı” və s. bu kimi müxtəlif səpkidə suallar verilir. Cavabların əsasında həmin ölkə və ya regionun sosial kapitalı haqqında müəyyən fikir yaranır. Amma bu tip qiymətləndirmələrə qarşı mənfi rəylər çoxdur. Hesab olunur ki, respondentlərin cavabının qeyri-səmimi olmaq ehtimalını, sorğuya cəlb olunanların sayının az və ya çox, cins, yaş, dini-etnik fərqlərinin olmasını da nəzərə almaq lazımdır.

Sosial kapitalın sorğular vasitəsilə qiymətləndirilməsi zamanı suallar adətən aşağıdakı 6 bölmə üzrə qruplaşdırılır (Christiaan Grootaert, Deepa Narayan,

Veronica Nyhan Jones, Michael Woolcock, 2004) (Bu qruplaşma ilə əsasən Dünya Bankının tədqiqatlarında qarşılaşırıq).

1. Qrup və şəbəkələr;
2. İnam və həmrəylik;
3. Kollektiv fəaliyyət və əməkdaşlıq;
4. İnformasiya və kommunikasiya;
5. Sosial uyğunluq və inteqrasiya;
6. Siyasi fəaliyyət və səlahiyyətlər.

1-2-ci bölmələr sosial kapitalı həm struktur, həm də koqnitiv qiymətləndirməyə imkan verir. 3-4-cü bölmənin sualları sosial kapitalın əsas fəaliyyətini, 5-6-cı bölmə isə tətbiq və nəticələrini əks etdirir.

Aşağıdakı konseptual sxem isə sosial kapitalın qiymətləndirilməsi istiqamətlərini göstərir. Konseptual sxemə görə sosial kapital makro və mikro səviyyədə araşdırıla bilər (Şəkil 1). Makro səviyyədə araşdırılan sosial kapitalın əhatə dairəsinə hüquq, idarəetmə, qanunlar və s. aiddir (Olson 1982, North 1990). Mikro səviyyədə araşdırılan sosial kapital isə fərdlər və qruplar arası əlaqəyə əsaslanır.

Belə sosial kapital qiymətləndirmə baxımından 2 yerə bölünür: **koqnitiv və struktur** (Uphoff 1996). *Koqnitiv sosial kapital* fərdlər arasında inam, həmrəylik kimi dəyərlər sisteminə əsaslanır, ümumi maraqlar naminə birləşmək kimi xüsusiyyətlərə malik olur. *Struktur sosial kapital* isə formal və qeyri-formal təşkilatları özündə birləşdirir. Bu təşkilatlar horizontal struktura malikdir, kollektiv və şəffaf qərarvermə, liderlərin hesabatlığı, qarşılıqlı hörmət kimi xüsusiyyətləri özündə etiva edir.

*Şəkil 1. Sosial kapitalın qiymətləndirilməsi (Bain and Hicks, 1998)*



Dünya Bankı tədqiqatçılarının da istifadə etdiyi bu konseptual modeldə qiymətləndirmə üçün yalnız sorğu nəticələrindən istifadə olunmur. Belə ki, Dünya Bankı sosial kapitalın ölçülməsində önəmli hesab etdiyi bir sıra iqtisadi göstəricilərin siyahısını da tərtib etmişdir: məsələn, kredit alma səviyyəsi, təşkilatlara üzvlük səviyyəsi, sosial məsuliyyət, tolerantlıq və s.

**Dünyada sosial kapitalın ümumi mənzərəsi**

Dünya ölkələri üzrə sosial kapitalın araşdırılmasına həsr olunmuş tədqiqat işləri bu sahədə hansı meylin olduğunu izah edir. İstər sorğuların, istərsə də empirik modellərin nəticələrinə görə Norveç, İsveç, Finlandiya, Kanada, Almaniya, İngiltərə, ABŞ, Danimarka, İsveçrə və s. dövlətlər yüksək sosial kapitala malik ölkələr hesab olunur. Belə ölkələrdə, adambaşına ÜDM kimi vacib iqtisadi göstərici, həmçinin əsasında bir çox müqayisələrin aparıldığı İnsan İnkişafı İndeksi də yüksək olur. Dünya Dəyərlər Sorğusuna (WVS, 2006) əsasən inam göstəricisi zəif olan bəzi Latın Amerikası ölkələrində İnsan İnkişafı İndeksi də aşağıdır.

2007-ci ildə keçirilən Dünya Dəyərlər Sorğusunun nəticələrinə görə inam səviyyəsi üzrə ilk 10-luqda yer alan ölkələr Norveç, İsveç, Finlandiya, Çin, Yeni Zelandiya, Holandiya, Kanada, ABŞ, Almaniya və İngiltərə olmuşdur.

Bir sıra beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edən "Caux Round Table" təşkilatı 2005 və 2009-cu illərdə "Sosial kapital üzrə nailiyyət" hesabatı hazırlamışdır. Hesabatda 199 ölkə üçün sosial kapital indeksi hesablanmışdır (Cədvəl 2). Burada 3 istiqamət üzrə göstəricilərdən istifadə olunmuşdur:

1. *İqtisadi aktivlik*
2. *Sosial-mədəni sfera*
3. *İnstitutlar*

İnam sosial kapitalın ilk təzahür forması olduğundan (Putnam, 2000) maraqlıdır. Ən yüksək sosial inama malik ölkələr isə Danimarka, Finlandiya, İsveç, İsveçrə (orta – 61%) olmuşdur. İctimai institutlara inamla bağlı sualları cavablandıran respondentlərə görə ən yüksək inama malik ölkələr Danimarka, Lüksemburq, İsveçrə, Fransa, Niderlanddır. Sosial institutlara inam əksər Avropa ölkələrində 40-50% aralığında dəyişir.

Sosial kapitalın ikinci vacib elementi olan şəbəkələrlə bağlı sorğu nəticələrini analiz edərkən ilk öncə insanlar arasındakı dostluq, qohumluq münasibətlərinə,

ikincisi isə müəyyən ictimai təşkilat və tədbirlərdə iştirakına nəzər yetirəcəyik. Bəzi ölkələrdə zəncir (bond) tipli sosial kapital həmişə olub. Ailə bağlarının möhkəm olması, qohumluq münasibətlərinin qarşılıqlı hörmətə əsaslanması və s. İnsanlar ən xırda komunal problemlərindən başlayaraq, iş tapmaq, ev almaq kimi məsələlərdə qohumluq, dostluq münasibətlərindən yararlanmışdır.

## Sosial kapital indeksi

Avropa ölkələri üzrə regional səviyyədə sosial kapital indeksini qiymətləndirmək üçün sosial kapital səviyyəsi müəyyən olunmuşdur (Dan Lee, Kap-Young Jeong & Sean Chae, 2011). Bu məqsədlə Avropa Dəyərlər Sorğusu, Dünya Bankının hesabatları, UN statistikası və s. məlumatlardan istifadə edilmişdir.

Qiymətləndirməyə daxil edilən göstəricilər sosial kapital indeksinin aşağıdakı sxemdə təsvir olunmuş strukturu əsasında toplanmışdır (Şəkil 2).




*Şəkil 2. Sosial kapitalın strukturu. (Dan Lee, Kap-Young Jeong & Sean Chae, 2011)*

Əvvəlcə yuxarıdakı sxem üzrə sosial kapital indeksinə daxil olan göstəriciləri təhlil edək. Göründüyü kimi, sosial kapitala iki aspektdən baxılır: münasibətlər və infrastruktur. Sosial kapitalın strukturuna dair sxemdə əsas anlayışlarından olan inamı – ümumi (generalized trust) və ictimai inamı xarakterizə edən suallar sorğu məlumatıdır. Ümumi inam 1) ətrafdakı insanlara inam, 2) iş birliyində ola bilmək, 3) özəl sektora daxili kreditlərin ÜDM-də payı ilə modelə daxil edilir.

Qeyd edək ki, kreditlərin səviyyəsi maliyyə bazarının inkişaf səviyyəsini göstərir. Bir sıra tədqiqatlara görə maliyyə bazarının inkişaf səviyyəsinə

cəmiyyətdə inamın güclü olması təsir edir (Guiso et al., 2004). Ümumi inam ictimai institutlara da inamı formalaşdırır və dövlətin effektiv, ədalətli idarəetmə siyasəti ictimai inamı gücləndirir. İctimai institutlara, qanunlara, mülkiyyət hüquqlarının qorunmasına və sosial institutlara (məktəb, bağça, universitetlər və s.) etibar etmək ictimai inamın göstəricisidir.

Normalar isə 2 istiqamətdən – vətəndaş mövqeyi və sosial davranışlarla izah olunur. Vətəndaş mövqeyi mühüm məsələlər (məsələn, ictimai nəqliyyatda gediş haqqı ödəməkdən qaçmaq, dövlət yardımlarından sui istifadə etmək və s.) üzrə "belə davranışlar düzgün hesab oluna bilməz" cavabını verən respondentlərin payı kimi götürülmüşdür.

Sosial davranışlar isə qanunların aliliyinə aid göstəricilər vasitəsilə ölçülmüşdür. Ölkənin hüquq sisteminin tipi göstəricisi də normalar bölməsinə aiddir. Bu göstərici həm qanunların aliliyini, həm də mülkiyyət hüquqlarının qorunması ilə bağlıdır.

Sosial şəbəkələr 2 tip assosiasiyalara üzvlüyü əhatə edir: *Putnam və Olson tipli qruplar*. Putnam qrupuna dini təşkilatlar, təhsil, idman, mədəni tədbirlərdə iştirakı əhatə edən qruplar və s. aiddir. Putnam şəbəkələr arasında horizontal strukturun tərəfdarıdır və belə hesab edir ki, belə şəbəkələr inamın güclənməsinə böyük töhfə verir. Olsona (1982) görə, maraq qrupları profesional assosiasiyalar olmalıdır və onların şəbəkəsi effektiv siyasətləri müəyyən etməyə yardım edir. Bu baxımdan o, həmkarlar ittifaqlarının fəaliyyətini vacib hesab edir.

Sosial struktur cəmiyyətdə qruplar arası münasibətlərin təbiətini göstərən 2 indikatora bölünür: mədəniyyət və sosial münaqişələr. Mədəniyyətin əsas göstəriciləri mühacir insanlar, urbanizasiya, qeyri-rəsmi sosiallaşma (dost və həmkarlarla vaxt keçirmə və s.), televiziya və internet istifadəçiləri, din və s. hüquqlardır.

Homogen gəlir səviyyəsinə malik ölkələrdə horizontal sosial münasibətlərin olması yüksək səviyyəli sosial əlaqələrin olmasına zəmin yaradır. Sosial strukturda nəzərə alınan vacib məsələlərdən biri də əhalinin dini tərkibidir. Sosial strukturun ikinci elementi olan sosial münaqişələr cəmiyyətdəki qarşıdurmaların institutlarla necə idarə olunması səviyyəsini göstərir.

Sosial kapital indeksi PCA (Principal Component Analysis) metodundan istifadə etməklə 45 dəyişən vasitəsilə qurulmuşdur. Qeyd edək ki, PCA metodu böyük həcmli verilənlərin azaldılaraq daha az xətti kombinasiyalara çevirmək üçün istifadə olunur. Bu məqsədlə 45 göstərici və 41 ölkədən ibarət (ümumilikdə 1845 elementi olan) matrisdən istifadə olunmuşdur.

Qiymətləndirmənin nəticəsinə görə regionlar üzrə ən yüksək sosial kapital Şimali Avropa ölkələrindədir (7.67). Bu səviyyəyə nisbətən yaxın olan ölkə qrupu isə Qərbi Avropadır. Şimali Avropa və Qərbi Avropa ölkələri bütün komponentlər üzrə Şərqi və Cənubi Avropaya nisbətən daha yüksək səviyyəyə malikdirlər. Yalnız şəbəkə və sosial struktur baxımdan Cənubi Avropa Şərqi Avropadan öndədir.

**Nəticə**

Tədqiqat işində sosial kapital haqqında geniş ədəbiyyat xülasəsi hazırlanmış, 4 komponent – inam, şəbəkə, norma və sosial struktur əsasında sosial kapital indeksi qiymətləndirilmişdir. Qiymətləndirmələrdə 40 Avropa ölkəsi də nəzərə alınmaqla regional səviyyədə sosial kapital indeksi hesablanmışdır. Avropa ölkələri üçün alınmış nəticələr fərqli metodologiya və sorğulardan istifadə etməklə hazırlanan tədqiqat işləri və hesabatlardakı nəticələrlə üst-üstə düşmüşdür. Belə ki, bu tədqiqat işində də Şimali Avropa ölkələrində sosial kapital səviyyəsinin yüksək, Şərqi Avropa ölkələrində orta olduğu qənaətinə gəlinmişdir.

Sorğular vasitəsilə təhlil göstərmişdir ki, bəzi ölkələrdə zəncir tipli sosial kapitala nisbətən körpü tipi zəif inkişaf etmişdir. Sosial kapitalı indeksinin 4 komponentindən inam və şəbəkələr üzrə bu ölkələrin mövqeyi, norma və sosial struktura nisbətən daha yaxşıdır.

Tədqiqat işində baxılan digər məsələ ekonometrik qiymətləndirmələr vasitəsilə sosial kapital indeksinin sosial-iqtisadi göstəricilərə təsirlərini araşdırmaq olmuşdur. Məlum olmuşdur ki, sosial kapital indeksi ilə iqtisadi göstəricilər arasında əhəmiyyətli əlaqə vardır.

Sosial kapital, başqa sözlə, qeyri-formal institutlar iqtisadi inkişafı dəstəkləyən instusional mühit üçün vacib rola malikdir. İnsanlarda olan güclü inam (istər şəxsi əlaqələrdə, istərsə də sosial, ictimai institutlara), sosiallaşma, şaquli təşkilatlanma, körpü tipli əlaqələr, sosial məsuliyyət, informasiyaya çıxış və s. bu kimi qeyri-formal institutlaşmanı inkluziv inkişafın dəstəkverici alətləri hesab etmək olar.

Bütün bunlar isə təhsil, səhiyyə, kommunal, maliyyə, infrastruktur, mənzil şəraiti, sosial yardım, pensiya təminatı, istirahət və yığım imkanlarına bərabər çıxışı imkanları yaradan idarəetmə sisteminin keyfiyyət göstəricisidir.

Güclü sosial kapital iqtisadi inkişafın təməl şərtlərindəndir. Aparılan tədqiqatlara görə Şimali Avropa ölkələrində güclü sosial kapital inkişaf

səviyyəsinə əhəmiyyətli təsirə malikdir. Sosial kapitalın formalaşması və güclənməsi i) sosial və ictimai inamın səviyyəsindən ii) fərdi əlaqələrin, ictimai-mədəni şəbəkələrin sıxlığından iii) formal və ya qeyri-formal normalardan iv) cəmiyyətin dini, etnik, siyasi, demoqrafik, hüquqi strukturundan asılıdır.

## Ədəbiyyat


1. Bourdieu, P. 1986. 'The Forms of Capital.' Pp. 241-58 in Handbook of theory and research for the sociology of education, edited by John G Richardson. New York: Greenwood Press.
2. Coleman, James S. 1988. 'Social Capital in the Creation of Human Capital.' The American Journal of Sociology 94: S95. ^
3. Coleman, James Samuel. 1990. Foundations of Social Theory. Cambridge, Mass.: Harvard University Press.
4. Dan Lee , Kap-Young Jeong & Sean Chae, Measuring Social Capital in East Asia and Other World Regions: Index of Social Capital for 72 Countries, Global Economic Review: Perspectives on East Asian Economies and Industries, 2013
5. Francis Fukuyama, Trust: The Social Virtues and the Creation of Prosperity (New York: Free Press, 1995).
6. Knack, S. and Keefer, P. (1997). 'Does social capital have an economic pay-off? A cross-country investigation', Quarterly Journal of Economics, vol. 112, pp. 1251–88.
7. Mancur Olson. 1982. The Rise and Decline of Nations: Economic Growth, Stagflation, and Social Rigidities. New Haven: Yale University Press
8. Paul S, Adler and Seok-Woo Kwon. 2002. 'Social Capital: Prospects For a New Concept.' Academy of Management. The Academy of Management Review 27: 17-40.
9. Putnam, Robert D. 1995. "Bowling Alone: America's Declining Social Capital." Journal of Democracy 6(l): 65-87.
10. Putnam, Robert D., Robert Leonardi, and Raffaella Nanetti. 1993. Making Democracy Work: Civic Traditions in Modern Italy. Princeton, New Jersey: Princeton University Press.
11. Putnam, Robert, Helliwel, John, "Economic Growth and Social Capital in Italy" Eastern Economic Journal, Vol.21, No:23, Summer 1995, pp.295-307
12. Whiteley, Paul F. "Economic Growth and Social Capital". Political Studies, Vol.48, 2000
13. Woolcock, Michael. 1998. "Social Capital and Economic Development: Toward a Theoretical Synthesis and Policy Framework." Theory and Society 27(2): 151-208.
14. Woolcock, Michael. 2000. "Social Capital: Implications for Development Theory, Research, and Policy." World Bank Research Observer 15 (2): 225-50